# TARİX, ETNOQRAFİYA VƏ SİYASİ ELMLƏR

**UOT 94**

## CƏNUBİ AZƏRBAYCANDA TÜRK MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMININ QARŞISININ ALINMASINDA ƏNVƏR PAŞANIN FƏALİYYƏTİ

**Əfşan ŞƏFİYEVA***

***Açar sözlər:*** *Birinci dünya müharibəsi, Osmanlı imperiyası, Cənubi Azərbaycan, soyqırımı*

***XÜLASƏ***

Birinci dünya müharibəsinin sonu imperialist qüvvələrin strateji əhəmiyyətli bölgələr, o cümlədən Cənubi Qafqaz və İran uğrunda mübarizəsinin güclənməsi ilə müşayiət olunmuşdur. Bu bölgələrdə ən güclü rəqiblər Böyük Britaniya və Rusiya idi ki, hər ikisi Osmanlı imperiyasının mövqelərinin güclənməsinə hər vəchlə mane olurdu. Avropa dövlətləri və sovet Rusiyası Osmanlı və Azərbaycan əleyhinə siyasətlərində əsasən bölgənin desktruktiv elementlərinə, yəni ermənilərə güvənirdilər. Azərbaycannın türk müsəlman əhalisinə qarşı soyqırımı siyasətinin həyata keçirilməsi Rusiyanın və Böyük Britaniyanın ən yayılmış siyasi vasitələrindən idi.

Azərbaycanlılara qarşı soyqırımı siyasətinin qarşısının alınmasında böyük xidmətləri olmuş şəxsiyyətlərdən biri – Osmanlı dövlətinin həmin illərdə hərbi naziri olmuş Ənvər paşadır. "İttihad və Tərəqqi" partiyasının liderlərindən biri kimi Ənvər paşa Osmanlı imperiyasının müasir Türkiyəyə çevrilməsində böyük rol oynamışdır. Azərbaycan və Dağıstana yardım üçün Qafqaz İslam Ordusunun təşkilində onun xidmətləri danılmazdır, bu ordunun ən böyük nailiyyəti isə - ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin qarşısının alınmasıdır.

Uzun illər ərzində Ənvər paşanın hərbi və ideoloji fəaliyyəti İslam coğrafiyasında türkçülük ideyalarının yayılmasına böyük təsir göstərmişdir.

Birinci dünya müharibəsinin doğurmuş olduğu və sonrakı onilliklərdə daha geniş miqyas alaraq böyük münaqişələrə çevrilən etnik və milli qarşıdurmalar, bir tərəfdən iri dövlətlərin müstəmləkəçilik siyasətinin bir parçasına çevrilərkən, digər tərəfdən də milli mənsubiyyət üzərində soyqırımlarına, miqrasiyalara, maddi dağıntılara və sosial problemlərə yol açmış oldu. Bu dövrdə süqut ərəfəsində olan Rusiya imperiyası Cənubi Qafqaz, eləcə də Qara dəniz və Xəzər dənizi bölgələrində ən böyük rəqib olaraq gördüyü Osmanlı dövlətini bu ərazilərə buraxmamaq üçün bir çox hallarda milli və etnik qarşıdurmalara rəvac verərək regional mövqeyini qoruyub saxlamağa çalışırdı. Bölgədə cəmi 100 ildir ki, məskunlaşmış olan erməni əhali isə çarizm üçün bu prosesin potensial dəstəkçisi olaraq görülürdü. Üstəlik Rusiya imperiyasının bu istiqamətdə artıq "təcrübəsi" var idi: 1905-1906-cı illərdə adı çəkilən bölgələrdə türk müsəlman əhaliyə qarşı ermənilər tərəfindən böyük soyqırımı törədilmişdi və bu hadisə yerli müsəlmanlar arasında böyük itkilərlə nəticələnmişdi (daha ətraflı bax: 10).

1917-ci ildə baş verən Fevral inqilabı, ardından isə bolşevik çevrilişi və siyasi sistemin dəyişməsi ilk baxışda Rusiyanın Birinci dünya müharibəsində iştirakını sonlandırsa da, əslində, yeni quruluşun müharibədən mümkün olduğu qədər böyük ərazi və siyasi "qənimət"lə çıxması məqsədini güddüyünü də göstərmiş oldu.Bolşevik rəhbərliyi hər nə qədər özünü beynəlmiləlçi və sülh tərəfdarı

* *t.ü.f.d., dosent, AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: afshanshafiyeva@yahoo.com*

olan hökumət kimi təqdim etsə də, ənənəvi "rus maraqları"ndan əl çəkməmişdi və hətta müharibənin sonuna doğru yaranmış beynəlxalq şəraitdə daha böyük cidd-cəhdlə bu maraqların müdafiəsinə qalxmışdı. Burada diqqəti çəkən məqam ondan ibarətdir ki, Osmanlı dövləti, dəqiq desək, "İttihad və tərəqqi" hökuməti ilk vaxtlarda bolşeviklərin hakimiyyətə gəlməsilə Cənubi Qafqazda Rusiyanın mövqeyinin zəifləyəcəyi qənaətində idi. Rusiyanın yeni rəhbərliyi də öz növbəsində Osmanlının bu gözləntilərini nəzərə alaraq, bölgədə daha sərt bir siyasət kursu götürmüşdü. Bu kursun əsas tərkib hissələrindən biri – strateji əhəmiyyəti böyük olan Azərbaycanın müstəqil dövlətçiliyinə hər vəchlə mane olmaq, Osmanlı-Azərbaycan yaxınlaşmasının qarşısını almaq, bölgənin ənənəvi destruktiv elementi olan və artıq bu yöndə illərin "təcrübəsi"ndən keçmiş ermənilərin mövqeyini gücləndirmək idi. Təşkil və təşviq edilən soyqırımı siyasəti isə bolşevik Rusiyasının taktik addımı idi.

Qeyd edək ki, 1918-ci il qırğınları ərəfəsində təkcə Cənubi Qafqaz deyil, Cənubi Azərbaycan da bu imperialist siyasətin, o cümlədən soyqırımları siyasətinin içərisində yer almışdı. G.C.Nəcəfli Cənubi Azərbaycanda, ələlxüsus Urmiyayanı bölgələrdə Azərbaycan türklərinə qarşı törədilən soyqırımına təkan verən amillər içərisində aşağıdakıları xüsusilə qeyd edir: "1905-1911-ci illər İranda baş verən inqilab zamanı xarici təbəələri qorumaq bəhanəsi ilə 1909-cu ildə Təbrizə girən çar Rusiyasının qoşunları tədricən Cənubi Azərbaycanın digər bölgələrini də işğal etdi. Bu vaxtdan etibarən Cənubi Azərbaycanın Osmanlı dövləti ilə olan bütün sərhədləri boyunca rus qoşunları yerləşdirildi. Birinci dünya müharibəsi dövründə Cənubi Azərbaycan ərazisi Rusiya və Osmanlı hərbi qüvvələrinin toqquşma meydanına çevrildi. 1915-ci ilin əvvəlində Osmanlı qüvvələri Ənvər paşanın komandanlığı ilə bölgəni rus qoşunlarından təmizləmək üçün əməliyyata başlasa da, Sarıqamış faciəsi və Ənvər paşanın Ərzurumun Allahu-əkbər dağlarında minlərcə əsgər itirməsi bu əməliyyatı yarımçıq qoydu. 1916-cı ildə demək olar ki, bütün Cənubi Azərbaycan ərazisi Rusiya qoşunları tərəfindən işğal olundu" (12, s.30-31).

Qeyd edək ki, 1918-ci ildə Urmiyayanı bölgələrdə Azərbaycan türklərinə qarşı qırğınların soyqırım olaraq geniş miqyas almasında bəzi amillər də rol oynamışdı. Məsələn,1916-cı ildə ruslarla osmanlılar arasında baş tutan Dilman döyüşündən sonra aysorların (Türkiyədə daha çox "süryani" olaraq tanınırlar)* Osmanlı torpaqlarından köç edərək Urmiyada və Salmasda məskunlaşması bölgədə milli qarşıdurmaları alovlandıran əlavə amillərdən biri olmuşdu. Aysorlar gəldikləri ilk ildən başlayaraq Cənubi Azərbaycanın yerli əhalisinin talan və qətl edilməsi ilə məşhurlaşmışdılar və ermənilər kimi, onlar da rus hakimiyyəti tərəfindən potensial destruktiv element olaraq görülürdü (bax: 6, s.4-5).

Birinci Dünya müharibəsinin sonuna doğru tərəflər arasında müttəfiqlik münasibətlərinin dəyişməsi, 1917-ci ilin dekabrında Ərzincan sülhünün, daha sonra isə 1918-ci ilin martında Brest-Litovsk müqaviləsinin imzalanması (9, s.367-385) sovet Rusiyasının müharibədən çıxmasını təsbit etsə də, istər Avropa cəbhəsində, istərsə də Qafqaz və İran cəbhəsində ziddiyyətləri nəinki aradan qaldırmadı, əksinə yeni münaqişə nöqtələri yaratdı. Belə ki, bolşeviklər strateji əhəmiyyətli bölgələrdən, o cümlədən İrandan (Cənubi Azərbaycandan) hərbi qüvvələrinin çıxarılması ilə heç bir vəchlə barışmaq istəmirdilər. Digər tərəfdən İranda, eləcə də Cənubi Qafqazda qüvvələr nisbətinin dəyişməsi, bölgədə Osmanlı dövləti üçün daha əlverişli şəraitin yaranması böyük dövlətləri, o cümlədən Hindistandakı maraqları üçün narahat olan İngiltərəni və hətta Osmanlının müttəfiqi olan Almaniyanı çox narahat edirdi. Xüsusilə Ənvər Paşa başda olmaqla ittihadçıların turançılıq ideyalarının reallaşa biləcəyi qorxusu da bu münasibətlərdə önəmli rol oynamışdı (11, s.404).

Rusiyanın bölgədə mövqeyinin zəifləməsi ilə Osmanlının güclənmə ehtimallarını diqqətə alan"müttəfiq dövlətlər (İngiltərə, Fransa və ABŞ) erməni, aysor və Cənubi Azərbaycanda qalan rus qüvvələrdən ibarət xristian ordusu yaradaraq (*ermənilərdən və aysorlardan ibarət* – Ə.Ş.) azərbaycanlılara qarşı xaç yürüşü həyata keçirdilər" (12, s.35; həmçinin bax: 13, s.14).Qeyd edək ki, Şimali Azərbaycandakı soyqırımları ilə paralel həyat keçirilən bu prosesdə Rusiya ilə yanaşı, İngiltərə də böyük fəallıq nümayiş etdirirdi. Nə yolla olursa olsun, Osmanlı dövlətini bölgəyə buraxmamaq, ta-

*Süryanilər Osmanlı dövlətinin əsasən Mardin, Dıyarbəkir, Elazığ, Malatya, Antep, Urfa, Adana kimi bölgələrində cəm olunmuşdular.

rixi birliyə malik olan Azərbaycan türkləri ilə birləşməsinə mane olmaq üçün ingilis qoşunları Zəncan, Xoy, Miyanə və Urmiyada yerləşdirildi. Bunun ardından ermənilərin və aysorların silahlandırılması başlandı (6, s.5). 1918-ci ilin fevral-mart aylarında Urmiya və Dilman bölgəsində silahlı dəstələrin böyük sayda cəm olunması, daha sonra isə Urmiya gölü ətrafında ermənilərin və aysorların qüvvələrinin birləşməsi baş verdi (12, s.41). Təkcə Urmiya şəhərində 1918-ci ilin fevralında bir neçə müsəlman məhəlləsi məhv edilmiş, 130 min azərbaycanlı öldürülmüşdü, martın əvvəllərində isə şəhər tamamilə ermənilərin əlinə keçmişdi (12, s.44-45). Aprel ayında soyqırımları Urmiyanın kəndlərinə də yayılmışdı. Bunun ardınca, 1918-ci ilin mayında Salmas və Xoyda türk müsəlman əhaliyə qarşı soyqırımları başlamışdı.Tamamilə müdafiəsiz vəziyyətə düşən Azərbaycan türklərinin yeganə ümid yeri Osmanlı dövləti idi.

Bu zaman Osmanlı dövlətinin özünün daxili və xarici siyasi vəziyyəti çox mürəkkəb idi. Cəbhələrdə bir-birinin ardınca məğlubiyyətlər, daxili siyasi qüvvələr arasında ixtilaflar, xarici qüvvələrin Osmanlı siyasətinə müdaxilə etmə cəhdlərinin intensivləşməsi bu mürəkkəb vəziyyətin əsas məqamları idi. Məlumdur ki, Birinci Dünya müharibəsinin önəmli cəbhələrindən olan Qafqaz cəbhəsi hələ hərbi əməliyyatlar başlamadan öncə Rusiyanın və digər böyük dövlətlərin ermənilərlə işbirliyi qurduğu cəbhə idi. Osmanlı arxiv sənədlərindəki materiallardan da görünür ki, hələ 1914-cü il avqustun ortalarında Cənubi Azərbaycandakı ermənilər böyük dövlətlər tərəfindən silahlandırılmağa başlanmışdı. Təkcə Xoyda 1914-cü ilin sentyabr ayına doğru erməni və kazak birləşmiş qüvvələri 800 piyada, 400 süvaridən ibarət idi (2). 1915-ci il Sarıqamış döyüşündən sonra isə rusların bu istiqamətdə fəaliyyəti açıq-aşkar şəkil almışdı. İlk soyqırım fəaliyyətləri də elə Osmanlı dövlətinin ruslar tərəfindən işğal olunmuş vilayətlərində (Van, Bidlis və Muşda) başlamışdı (1, s.48).

Osmanlı ordusu bolşeviklərin hakimiyyətə gəlməsindən sonra müsəlmanlara qarşı soyqırımların təkrarlanmaması üçün Ərzincan, Trabzon, Ərzurum və Vanı geri almağa müyəssər oldu (5, s.446). Brest-Litovskdən sonra isə Ərdəhan, Sarıqamış və Batumi də azad edildi (5, s.447). Qeyd edək ki, torpaqların düşməndən azad edilməsi istiqamətində əməliyyatlar 1918-ci ilin əvvəllərinə doğru Cənubi Qafqazda və İranda baş verən hadisələrin fonunda baş verirdi. Bu bölgələrdə ermənilərin törətdikləri soyqırımların qarşısının alınması üçün Ənvər paşanın təşəbbüsü və fəal iştirakı ilə qurulan Qafqaz İslam Ordusunun həyata keçirdiyi əməliyyatlar bir tərəfdən erməni zülmünə son qoymağa, digər tərəfdən isə iri dövlətlərin burada yenidən güclənməsinin qarşısını almağa istiqamətlənmişdi. Osmanlı arxivində olan 16 fevral 1918-ci il tarixli raporta görə, Osmanlı dövləti hələ ermənilərin soyqırım fəaliyyətləri geniş miqyas almazdan əvvəl Nargindəki türk əsirlərini azad etməyə müyəssər olmuş və Bakıda hərbi təşkilatlanma cəhdləri etmişdi (4, s.452). Həmin raportda daha sonra qeyd olunur: "Qafqazda ermənilərin törətdiyi faciələr çox dəhşətlidir. İnsan bu faciələri eşitdikcə Türkiyədə bir erməninin belə qalmasına razı olmaq istəmir" (4, s.452).

Qeyd edək ki, həmin dövrdə Osmanlı dövlətinin demək olar ki, bütün başlıca sahələrini nəzarətində saxlayan hərbi nazir Ənvər Paşa Qafqaz siyasətinə və Cənubi Azərbaycan məsələsinə böyük önəm verirdi. Təsadüfi deyil ki, Brest-Litovsk müzakirələrində də Ənvər paşa özü şəxsən iştirak etmişdi və danışıqlarda əsas mövzuları təklif edən və istiqamətləndirən də o olmuşdu (3, s.50-51).

Hələ 1918-ci ilin fevralında 6-cı ordu komandanlığına göndərdiyi məktubda Ənvər Paşa "Dağıstan, Türkistan və Rusiyaya bağlı bütün müsəlman ərazilərinə ehtiyacları olan köməyin göstərilməsi və təşkili üçün yüzbaşı Nuru Paşanın (*qardaşı* – Ə.Ş.) və yüzbaşı Şövkət bəyin Dağıstana, minbaşı Cavad bəyin isə Əfqanıstana göndərilməsini" istəmişdi (1, s.65-66; 6, s.63). Ənvər Paşanın məqsədiNuru Paşanın komandanlığı altında 6-cı və 3-cü ordudan alınan zabitlərdən təşkil ediləcək "Qafqaz İslam Ordusu"nun qurulması idi. Bu məsələ təkcə Rusiyanı deyil, Hindistandakı mülkləri üçün narahat olan Böyük Britaniyanı da ciddi narahat edirdi. Təsadüfi deyil ki, ingilis mətbuatı Ənvər Paşanın bu planlarından xəbər tutaraq, hələ 1918-ci ilin martında Osmanlı ordusunun Batumidən keçərək Qafqaza, almanların isə İrandan Rusiyaya istiqamət götürəcəklərini, bu yolla da İranın qapılarının türklərə açılacağını yazırdı. "Times" qəzetinə görə, osmanlıların İranı ələ keçirmələri üçün böyük bir qüvvəyə ehtiyacı yox idi (3).

Yuxarıda da qeyd etdiyimiz kimi, bu şəraitdə Almaniya da Osmanlı dövlətinin Qafqazda və İranda güclənməsinin əleyhdarı idi. Lakin Ənvər Paşa müttəfiqlərin bütün maneələrinə baxmayaraq, Qafqaz İslam Ordusunun qurulmasında israrlı idi. Belə bir faktı da qeyd etmək yerinə düşər ki, almanların türk tərəfinə göstərdiyi təzyiqlər səbəbilə Ənvər Paşa zahirdə Qafqaz İslam Ordusunun irəliləməsini qadağan etmişdi, lakin Nuru Paşaya yazdığı özəl məktublarda Bakının dərhal azad edilməsi təlimatını vermişdi (1, s.73).Nuru Paşa Qafqaz İslam Ordusunun komandanlığına gətirildikdən sonra, 1918-ci ilin martın 25-də Mosula, oradan da Təbrizi keçərək aprelin 8-də Qafqaz İslam Ordusunu qurmaq üçün Azərbaycan Milli Hökümətinin müvəqqəti mərkəzi olan Gəncəyə gəldi (11, s.405).

Qafqaz İslam Ordusunun əsas vəzifələrindən biri də Cənubi Azərbaycanda ingilis ordularının hücumunun qarşısını almaq idi ki, bu məqsədlə İrəvan – Naxçıvan – Urmiya – Təbriz xətti seçilmişdi (7, s.24). M.C.Qasımlı qeyd edir ki, "Cənubi Azərbaycanın İranda və bütün Orta Şərqdə panislamçı fikirləri yaymaq və pantürkçü planları reallaşdırmaq üçün strateji əhəmiyyəti var idi. Təbriz İran və Osmanlı dövlətinin ən yaxşı barışdırıcı mərkəzi rolunu oynaya bilərdi. Çünki Cənubi Azərbaycanın ələ keçirilməsi İranın mərkəzi bölgələrinə, oradan da Əfqanıstana, hətta Hindistana keçməyi asanlaşdırırdı (7, s.26).Digər tərəfdən Cənubi Azərbaycan İran ilə Qafqaz arasındakı kommunikasiyaların qovşağı idi.Və Gümrü – Culfa dəmiryoluna sahib olan türklərin Cənubi Azərbaycana girməsi zəruri idi.Eyni zamanda Bakının işğalçılardan azad edilməsi üçün Ənzəli limanının ələ keçirilməsi də önəmli idi.

Ümumiyyətlə, Ənvər Paşa başda olmaqla Osmanlı komandanlığı Qafqaz İslam Ordusubirləşmələrinin Azərbaycana iki istiqamətdən daxil olmasını planlamışdı: birincisi Qars və Gümrü vasitəsilə Cənubi Azərbaycandan və ikincisi Şuşadan. Məhz bu plana uyğun olaraq Osmanlı hərbi hissələri (təxminən 15 min nəfərlik) Cənubi Azərbaycana girdilər və burada ermənilərin və aysorların müsəlman əhaliyə qarşı başlamış olduqları soyqrımın qarşısını almaq fəaliyyətinə başladılar. Nuru Paşanın 300 nəfərlik zabit heyəti isə mayın 9-da Təbrizə gəldi, daha sonra Savucbulaq – Təbriz – Alacücə xətti ilə Araz xəttinə çatdı (8, s.64). Türk qoşunları 1918-ci il mayın 16-da Naxçıvana, mayın 25-də isə Gəncəyə daxil oldu və ordunun növbəti addımı Bakını işğalçılardan azad etmək və erməni quldur dəstələrindən təmizləmək oldu. Ənvər Paşa özü isə Cənubi Qafqaz və İrandakı vəziyyəti nəzarətdə saxlamaq üçün 1918-ci ilin iyun ayında Batumiyə gəldi.

Qeyd edək ki, bu zaman Cənubi Azərbaycanda ermənilərin və aysorların törətdikləri soyqırımları əvvəlki intensivliklə davam edirdi. Hətta "Urmiya bölgəsindəki ermənilərin Mosulda ingilis qüvvələri ilə vuruşan Osmanlı ordusuna hücum edəcəyi barədə gizli məlumat alınmışdı. Buna görə də Osmanlı baş komandanlığı IV Nizami orduya Urmiya – Dilman bölgəsini ələ keçirməyi tapşırmışdı" (12, s.52). Ənvər paşa eyni zamanda İrəvan – Culfa istiqamətində hərəkətə keçərək Təbriz xəttinin alınmasını da istəmişdi. İyunun 18-də isə türk ordusu Dilmanı ələ keçirmiş, Dilman və Salmasda müsəlman əhaliyə qarşı davam edən soyqırımlarına son qoymuşdu. Bunun ardınca Andronikin komandanlığındakı erməni hərbi qüvvələrinin Xoy istiqamətindən cənuba doğru hərəkəti başladı. G.C.Nəcəfli qeyd edir ki, "ermənilərin niyyəti Təbriz bölgəsinə qədər irəliləyən ingilis qüvvələri ilə birləşərək Osmanlı qüvvələrini məğlub etmək və Qafqaz cəbhəsinə geri dönmək idi" (12, s.54). Lakin Osmanlı qüvvələri ermənilərin bu planının qarşısını aldıqları üçün onlar Xoy şəhərinin mühasirəsini yarımçıq qoydu.1918-ci ilin avqustunda isə türk hərbi hissələri Miyandab və Urmiyaya girdilər. Həmin ayın sonuna doğru isə bütün Cənubi Azərbaycana nəzarət türklərin əlinə keçmiş oldu (7, s.35). Bundan sonra Qafqaz İslam Ordusunun başlıca hədəfi Bakının azad edilməsi oldu. 1918-ci il sentyabrın 15-də Bakının türklər tərəfindən azad edilməsi nəticəsində Azərbaycan Xalq Cumhuriyyəti öz paytaxtına qovuşdu.

Böyük dövlətlərin Azərbaycanla bağlı planları, o cümlədən ingilis siyasəti Osmanlı dövlətinin Azərbaycan Xalq Cumhuriyyəti ilə yaxınlaşmasının ən böyük maneəsi oldu. 30 oktyabr 1918-ci ildə Mudros sülhünün izmalanması ilə Birinci dünya müharibəsi Osmanlı dövləti üçün başa çatdı.Bu anlaşmaya görə Osmanlı qüvvələri Qafqazdan və Cənubi Azərbaycandan geri çəkilmək məcburiyyətində qaldı.

Türklərsiz "böyük Ermənistan" qurmaq xəyalını reallaşdırmağa çalışan ermənilərin 1918-ci ildə Cənubi Qafqazda, eləcə də Cənubi Azərbaycandatürk müsəlman əhaliyə qarşı törətdikləri dəhşətli soyqırımımahiyyət etibarilə, əslində həmin yüzillikdə sonradan bir neçə dəfə təkrarlanacaq soyqırımı hadisələrinin böyük bir dalğası oldu. Bu soyqırımında yüz minlərlə Azərbaycan türkünün və eləcə də bölgənin digər müsəlman əhalisinin qətli Birinci dünya müharibəsinin sonuna doğru artıq qaliblərin bəlli olduğu bir dövrə təsadüf etdi. İri dövlətlər, xüsusilə Rusiya və Böyük Britaniya vəziyyəti mümkün olduğu qədər öz mənfəətlərinə tabe etdirmək üçün bütün vasitələrdən istifadə etdilər və bu siyasətin ən böyük zərbəsi strateji əhəmiyyətli bölgələrin əhalisinə dəydi. Cənubi Qafqaz və İranı öz strateji maraqlarının mühüm mərkəzləri olaraq görən Rusiya və Böyük Britaniya Osmanlı dövlətini bu bölgələrdən çıxarmaq üçün bölgədəki ermənilərə öz dövlətini qurmaq vədi altında soyqırımlarına rəvac verdilər.Osmanlı dövlətinin hərbi qüvvələrinin Azərbaycandan çıxarılması və Türk-İslam birliyinin pozulmasınəticəsində Rusiya yenidən adı çəkilən bölgələrdə üstünlüyünü bərqərar etməyi bacardı.

Ənvər Paşa başda olmaqla İttihadçıların turançılıq ideyası iflas etsə də Qafqaz İslam Ordusunun Azərbaycan üçün xidmətləri yüksək oldu. Bu xidmətlərin başlıca yekunu ondan ibarət oldu ki, bölgədə Azərbaycan türklərinin etnik təmizlənməsinin qarşısı alındı, ermənilərin soyqırımı fəaliyyətləri bir neçə onillik üçün dayandırıldı.XX əsrin əvvəllərində atılmış Türkiyə - Azərbaycan dostluğunun təməli, böyük bir fasilə yaranmasına baxmayaraq, dağılmadı və XX əsrin sonlarında qarşılıqlı münasibətlərin yenidən bərpasına imkan verdi. Ənvər Paşanın istər hərbi, istərsə də ideoloji fəaliyyəti uzun illər Türk İslam coğrafiyasında Türkçülük ideyalarının yayılmasına və təbliğinə önəmli dərəcədə təsir göstərmiş oldu.

## ƏDƏBİYYAT


1. Altınsoy Y. Kafkas İslam Ordusu ve Bakü Zaferi // Karatay Sosyal Araştırmalar Dergisi, 2019, sayı 2, s.42-91.
2. Baş Osmanlı Arşivi, Hariciye Nezareti Siyasi Kısım Evrakı, 2362/3-14
3. Baş Osmanlı Arşivi, Hariciye Nezareti MA, 1215/136
4. Budak M. Nuru Paşanın Qafqas İslam Ordusu Haqqında Raportu // *Azerbaycan Xalq Cümhuriyyeti ve Qafqaz İslam Ordusu,* Bakı, 2008
5. Danışmend İ.H. *İzahlı Osmanlı Tarihi Kronolojisi,* İstanbul 1972, IV cild
6. Dilməqani T. Çüney Azərbaycan Birinci dünya müharibəsi illərində. Tərcümə edən C.Mirzəyeva. Bakı, 2011.
7. Gasımlı M. Bakü'nün kurtarılması uğruna Türk Diplomasisinin Mücadelesi: 1918 Yılı // Avrasya Dosyası, Azerbaycan Özel, İlkbahar 2001, Cilt: 7, Sayı 1, s.18-55.
8. İsgəndərov A.C. Qafqaz İslam Ordusu və Azərbaycan // Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər Seriyası, 2008, sayı 1, s.60-69.
9. Kurat A.N. Brest-Litovsk'ta Türk ve Sovyet-Rus Heyətləri arasında müzakirələr // Türkiye ve Rusya, Kültür Bakanlığı, 1990, s.367-385.
10. Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə, 1905-1906-cı illər. 2. Bakı, "Elm", 2010.
11. Məmmədli M., Çelik M. Türk ve Rus Kaynaklarına göre Kafkas İslamOrdusu'nun Kafkasya Harekâtına Yeni Bir Bakış // Karadeniz Araştırmaları Enstitüsü Dergisi,6/11, s.403-428. DOI: 10.31765/karen.798722
12. Nəcəfli G.C. Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917-1918). Bakı, "Elm", 2017 – 112 s.
13. Səfəri H. 1918-ci ildə Güney Azərbaycanın qərb bölgəsində soyqırımı törədilməsində missioner təşkilatların rolu // "Güney Azərbaycan: tarix və müasirlik". Bakı, 2014.

**_РЕЗЮМЕ_**

**_Афшан ШАФИЕВА_**

**_Деятельность Энвера Паши в деле предотвращения геноцида против тюрко-мусульманского населения Южного Азербайджана_**

**_Ключевые слова:_** _Первая мировая война, Османская империя, Южный Азербайджан, геноцид_

Конец Первой мировой войны ознаменовался усилением борьбы империалистических сил за стратегически важные регионы мира, в том числе за Южный Кавказ и Иран. Самыми сильными соперниками в этих регионах были Великобритания и Россия, которые всеми силами препятствовали укреплению позиций Османской империи. Европейские державы и советская Россия в своей антиосманской и антиазербайджанской политике полагались в основном на деструктивные элементы региона, т.е. на армян. Проведение политики геноцида против тюрко-мусульманского населения Азербайджана было одним из распространенных политических средств России и Великобритании.

Огромная роль в предотвращении политики геноцида против азербайджанцев принадлежит Энверу Паши, который являлся в те годы военным министром Османского государства. Он как один излидеров партии «Иттихад и Теракки», сыграл больщую роль в преобразовании Османской империи в современную Турцию. Его услуги в организации Квказской Исламской армии для помощи Азербайджану и Дагестану неоспоримы, а главным достижением этой армии – предотвращение этнической чистки азербайджанских тюрков со стороны армянских сил.

На протяжении многих лет военная и идеологическая деятельность Энвера-Паши оказывала огромное влияние на распространение идей пантюркизма в мусульманской географии.

**_SUMMARY_**

**_Afshan SHAFİYEVA_**

**_Anvar Pasha's Activities in Preventing Turkish Muslim Genocide in South Azerbaijan_**

**_Keywords:_** _First World War, Ottoman Empire, South Azerbaijan, genocide_

The end of the First World War was accompanied by the intensification of the struggle of imperialist forces for strategically important regions, including the South Caucasus and Iran. The strongest rivals in these regions were Great Britain and Russia, both of which in every way hindered the strengthening of the Ottoman Empire. European states and Soviet Russia relied mainly on the destructive elements of the region, ie the Armenians, in their anti-Ottoman and anti-Azerbaijani policies. The implementation of genocide policies against the Turkish Muslim population of Azerbaijan was one of the most widespread political means of Russia and Great Britain. One of the great figures in the prevention of the policy of genocide against Azerbaijanis was Anvar Pasha, who was the military minister of the Ottoman state in those years. As one of the leaders of the Union and Progress Party, Anwar Pasha played a major role in the transformation of the Ottoman Empire into modern Turkey. His contribution to the formation of the Caucasus Islamic Army to assist Azerbaijan and Dagestan is undeniable, and the greatest achievement of this army is the prevention of ethnic cleansing by Armenians against Azerbaijanis.

For many years, Anwar Pasha's military and ideological activities had a great impact on the spread of Turkic ideas in Islamic geography.